# Fədakar təhsil işçisi



**Nəbi Mahmudov 1955-ci ildə Azərbaycan Respublikası Samux rayonunun Qarayeri qəsəbəsində anadan olub, 1972-ci ildə qəsəbə 1 nömrəli tam orta məktəbini, 1976-cı ildə Gəncə Dövlət Universitetinin (Həsən bəy Zərdabi adına Dövlət Pedaqoji İnstitutunun) fizika-riyaziyyat fakültəsini (riyaziyyat ixtisası üzrə) fərqlənmə diplomu ilə bitirib.**

Təyinatla Ağsu rayonunda riyaziyyat müəllimi işləyib, məktəb komsomol təşkilatının katibi, rayon gənc müəllimlər şurasının üzvü seçilib. İşlədiyi 6 il ərzində şagirdləri Bakı, Gəncə və Sankt-Peterburqun ali məktəblərinə qəbul olunub. Məktəbin və rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə və Ümumittifaq komsomolu Mərkəzi Komitəsinin Fəxri fərmanları ilə təltif olunub. O, kənd məktəbində işlədiyi müddətdə mətbuatda pedaqoji və metodik yazılarla çıxış edib, ADPU-nun Riyaziyyatın ibtidai kursunun tədrisi metodikası kafedrasının dissertantı olub. Aspirant və dissertantların konfranslarında çıxış edib, tezisləri çap olunub. O, konfransda məruzə edib, vektorlar üzərində əməllərin tətbiqi ilə Menelay teoreminin 3-cü yolla isbatını verib və onun metodik baxımdan əhəmiyyətli olduğunu göstərib.

1983-cü ildə AMEA Riyaziyyat və Mexanika İnstitutunda baş laborant kimi fəaliyyətə başlayıb və burada "Xətti və qeyri-xətti tənliklər üçün Qrin funksiyası və ayrılma teoremləri" mövzusunda elmi işi uğurla tamamlayıb, müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alıb. RMİ-də işlədiyi müddətdə qəlbən bağlandığı müəllimlik peşəsindən ayrılmamış və 1988-1993-cü illərdə Bakı şəhəri, Səbail rayonu Həbib bəy Mahmudbəyov adına texniki-humanitar fənlər təmayüllü liseydə informatika fənnindən dərs aparıb. O, texniki təmayüllü liseylər üçün İnformatikadan proqram tərtib etmiş və təsdiq olunmuş bu proqram əsasında "Basic" alqoritmik dilində proqramlaşdırma (Bakı: 1992) adlı dərs vəsaiti hazırlayıb, çap etdirmişdir. Həmin dövrdə lisey və gimnaziyalarda informatika fənninin tədrisində əsasən bu vəsaitdən istifadə olunmuşdur. 1993-1994-cü illərdə ictimai əsaslarla Bakı şəhəri, Nərimanov rayonu Bağça-məktəb-lisey kompleksi (indiki MLK) direktorunun elmi-metodiki işlər üzrə müavini, "İstedadlar" liseyinin direktoru vəzifəsini icra etmişdir. 1994-cü ildə Binəqədi rayonundakı 83 nömrəli məktəb-liseyin nəzdində fizika-riyaziyyat- informatika və kimya-biologiya təmayüllü lisey siniflərinin açılmasına nail olmuş və həmin ilin noyabr ayında məktəb-lisey statusu almış 83 nömrəli məktəb-liseyə direktor təyin edilmişdir. Məlumat üçün bildirim ki, Nəbi müəllimin də övladları şagirdlərə mükəmməl təhsil verən bu təhsil ocağını bitirmiş, ali məktəblərə daxil olmuş və mütəxəssis kimi yetişərək dövlətimizə xidmət etməkdədirlər. Həmin dövrdə bu təhsil müəssisəsində yaradılmış məktəb-lisey şurası müəllimlərin seçimində, şagirdlərin lisey siniflərinə qəbulunda, valideynlərin məktəblə, müəllimlərlə sıx əlaqəsinin qurulmasında mühüm rol oynamışdır. Məktəb-liseydə istedadlı şagirdlərin fərdi qabiliyyətlərinin daha da inkişaf etdirilməsi üçün "Şagird Elmi Cəmiyyəti" təsis edilmiş, hər tədris ilinin sonuncu ayında "Müasir dövrdə ekoloji problemlər və onların aradan qaldırılması" yollarına həsr edilmiş şagird elmi konfransı keçirilmiş, "Azərbaycan müəllimi" qəzetində yazılar verilmişdir.

2002-ci ilin aprelindən ADPU-nun (Azərbaycan Müəllimlər İnstitutunun) Riyaziyyatın tədrisi metodikası kafedrasında dosent kimi fəaliyyətini davam etdirmiş, ibtidai təhsilin pedaqogikası və metodikası fakültəsində təhsil alan tələbələrin və ümumtəhsil məktəblərində işləyən ibtidai sinif müəllimlərinin riyaziyyatın ibtidai kursunun tədrisi ilə bağlı zəruri ehtiyaclarının ödənilməsi üçün metodik vəsait üzərində işləmiş və müəllimlər üçün "İbtidai siniflərdə məsələ həllinin öyrədilməsi metodikası" adlı metodik vəsait çap etdirmişdir. Onun "Fizika, riyaziyyat və informatika tədrisi" jurnalında çap olunmuş "İlk mürəkkəb məsələnin daxil edilməsinə yanaşmalar" adlı məqaləsində yeni 3-cü yanaşmanı daxil etməsi bu məsələ ilə bağlı pedaqoji elm tarixində bir yenilik kimi də qəbul oluna bilər. O, İnstitutda işlədiyi müddətdə ali məktəblər üçün dərs vəsaitləri və məqalələr hazırlayıb çap etdirmişdir: İnformatika (ali məktəblər üçün dərs vəsaiti, Bakı: 2002; 2003), İnformatikanın tədrisi metodikası (ali məktəblər üçün dərs vəsaiti, Bakı: 2003), Kimya məsələlərinin proqramlaşdırılması (Bakı: 2003), Een Land tussen Oost en West (şerikli). Arnhem, The Netherlands, Vernievwing, № 3 (March, 2004).

2004-cü ildə Təhsil Nazirliyinin Şagird nailiyyətlərinin qiymətləndirilməsi şöbəsində baş məsləhətçi vəzifəsində çalışmağa başlamış, respublikada ümumi orta və tam orta təhsil səviyyələri üzrə qiymətləndirmə tapşırıqlarının, müvafiq metodik vəsaitlərin hazırlanmasında, yerlərdə buraxılış imtahanların təşkilində, obyektiv və şəffaf aparılmasında qüvvə və bacarığını əsirgəməmişdir. O, yeni məktəbdaxili qiymətləndirmə sisteminin tətbiqi ilə bağlı Bakı və Sumqayıt şəhərlərinin, həmçinin Abşeron rayonunun seçilmiş tam orta məktəblərinin Azərbaycan dili və riyaziyyat müəllimlərinin təlimini təşkil etmiş, bu məktəblərdə eksperimentlərin aparılmasında bilavasitə iştirak etmişdir. O, ilk olaraq qiymətləndirmə tapşırıqlarının qiymətləndirilməsində çəki əmsalının və distraktorların sayından asılı olaraq qiymətləndirmə dərəcələrinin daxil edilməsini təklif etmişdir. Bununla bağlı əhatəli informasiyanı "Ümumi təhsil pilləsində qiymətləndirmə" (Bakı: 2012) və "Ümumtəhsil məktəbində sinifdaxili qiymətləndirmə" (Bakı: 2016) adlı metodik vəsaitlərdən almaq olar. Artıq 2017-ci ildən başlayaraq ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarında şagirdlərin açıq tipli tapşırıqlarının qiymətləndirilməsində bu tip yanaşmadan istifadə edilir.

2014-cü ilin avqustunda Bakı şəhəri 83 nömrəli məktəb-liseyə direktor təyin edilən Nəbi müəllim məktəb-liseyin 1994-2002-ci illərdəki fəaliyyətini dialektik baxımdan həyata keçirməyə başlayıb. 2015-ci ildən ARTİ-nin pedaqogika üzrə elmlər doktoru proqramı üzrə doktorantı olaraq o, "Ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin qiymətləndirilməsi üzrə işin sistemi" adlı doktorluq dissertasiyasını tamamlamaq üzrədir.

Məktəb-liseydə valideynlərin maarifləndirilməsi istiqamətində də müəyyən işlər görülməkdədir. Nəbi müəllimin rəhbərliyi ilə Azərbaycan və rus dillərində valideynlər üçün məlumat kitabçası - "Meyarlara əsaslanan qiymətləndirmə" (Bakı: 2018) adlı vəsait hazırlanmış, çap edilmişdir. Bu məlumat kitabçasında valideynlər üçün ümumi təhsil müəssisələrində aparılan qiymətləndirmə barədə yığcam məlumat verilir, təhsilalanın qiymətləndirilməsinə aid nümunələr və onların şərhi göstərilir. Təhsil islahatı baxımından həyata keçirilən yeni sinifdaxili qiymətləndirmə ilə bağlı valideynlərlə görüşlər təşkil olunur, onların qarşısında təqdimatlar edilir, onlarla fikir mübadiləsi aparılır. Bu göstərilənlər isə müəllimlərin və valideynlərin məsuliyyətinin, məktəb-valideyn əməkdaşlığının, ümumilikdə təhsilin keyfiyyətinin yüksəlməsini şərtləndirir.

"Açıq qapı" günlərində iştirakı təşkil olunur. Təmayülləşmənin tətbiqi təqdir olunur və nəticələri yüksək olur. Əvvəlki tədris illərində riyaziyyat-iqtisadiyyat təmayüllü sinfi bitirənlərin 100% ali məktəblərə qəbul olunması da bu fəaliyyətin effektiv olduğunu təsdiq edir. Bu, eyni zamanda repetitorluqdan da uzaqlaşmanı və şagirdlərin məktəbdə təhsil almasını şərtləndirir, valideynlərin haqlı razılığına səbəb olur.



O, məktəb-liseydə istedadlı şagirdlərin seçilməsi üçün müxtəlif fənn olimpiadalarının - "Qunduz" onlayn müsabiqə, "Kenquru" beynəlxalq riyaziyyat olimpiadasının materialları əsasında riyaziyyat olimpiadalarının keçirilməsini təşkil edir və onların yaradıcılıq potensialının inkişaf etdirilməsinə xüsusi diqqət ayırır, istedadlı şagirdlərin müəyyən edilməsi və onların müəllimlər tərəfindən hazırlığına nail olur. Bu baxımdan "Kenquru" beynəlxalq riyaziyyat olimpiadalarının materiallarını tərcümə etməsi və "Kenquru" olimpiada məsələləri (Bakı: 2014) adlı vəsaitin çap olunması təqdirəlayiqdir. Şagirdlərdə məntiqi təfəkkürün inkişafına ibtidai təhsil səviyyəsində başlamağın zəruri olduğunu dərindən anlayan bu insan 2016-cı ildə "Kenquru" olimpiada məsələləri (2-ci siniflər üçün), "Kenquru" olimpiada məsələləri (3-4-cü siniflər üçün) vəsaitlərinin çapına və onlardan şagirdlərin istifadəsinə nail olur. Nəhayət məktəb-liseyin əvvəlki illərdə əldə etdiyi uğurların qayıdışına başlanılıb. Son illər VIII-XI sinif şagirdləri Azərbaycan tarixi, coğrafiya və informatikadan fənn olimpiadalarının şəhər turunun qalibi olur, respublika turunda iştirak edir, Təhsil Nazirliyinin sertifikatlarına layiq görülürlər. VIII-IX sinif şagirdləri Azərbaycan tarixi fənni üzrə "e-test" müsabiqəsində iştirak edir, müsabiqənin qalibləri olub Təhsil Nazirliyi tərəfindən sertifikat və hədiyyə ilə təltif olunurlar. Lütfi Zadə adına məntiq olimpiadasında, həmçinin 6-7-ci sinif şagirdlərindən fənn müsabiqələrində iştirak edənlərin və qaliblərin sayında irəliləyişə nail olunur. Son illər məktəb-liseyin IX və XI sinif məzunlarının buraxılış imtahanlarının nəticələri yüksələn xətlə davam edir. Məktəb-lisey "Yaxşı nəticəli məktəb-lisey" statusuna layiq görülüb.

Məktəb-liseydə şagirdlərin inkişafı və müəllimlərin səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işləri sadalamaqla qurtarmaq mümkün deyil.

Sonda onu deyə bilərəm ki, 43 illik pedaqoji təcrübəyə malik olan Nəbi Mahmudov rəhbərlik etdiyi məktəb-liseydə müəllimlərin, şagirdlərin və valideynlərin ən yaxın dostu olaraq təhsil islahatının həyata keçirilməsi, təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində məqsədyönlü iş aparır, gənc nəslin müasir dövrün tələbləri baxımından hazırlanması üçün qüvvə və bacarığını əsirgəmir.

Ulu öndərimiz Heydər Əliyevin "Özünü müəllimliyə həsr etmiş insan ən şərəfli insandır" müdrik sözləri öz mənalı həyatını gənc nəslin səriştəli mütəxəssis kimi həyata hazırlanması yolunda təhsil almalarına həsr etmiş bu insana da aid edir və bundan sonra da bu şərəfli yolda ona və rəhbərlik etdiyi pedaqoji kollektivə uğurlu fəaliyyət arzu edirik.

Nəbi Mahmudov ömrünün təxminən 50 ilini milli təhsilin inkişafına və gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir. Dərin biliyi, fədakar əməyi ilə müdrik pedaqoq-alim kimi şöhrət qazanmışdır.

Nəbi Mahmudov riyaziyyat üzrə fəlsəfə doktoru, Lütfi Zadə adına BMEA-nın müxbir üzvü, "Vətən" mükafatı laureatı, 200-dən yuxarı elmi və metodik məqalənin, o cümlədən 78 dərslik, dərs vəsaiti və metodik vəsaitin müəllifidir.

Nəbi Mahmudov bu gün də gənclik ehtirası ilə yazıb-yaradır.

**Əhməd ƏSƏDLİ,**
**"Qızıl qələm" mükafatı laureatı.**